# Zəfərdə də, kədərdə də birlikdəyik

## Türkiyə-Azərbaycan əbədi birliyinin gücü sarsılmazdır

Bir millət, iki dövlət olan Türkiyə-Azərbaycan birliyi bu gün tarixindəki ən yüksək zirvəyə qalxıb. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır" və dünya ölkələri arasında bir-birinə bu qədər candan kömək edən, arxa-dayaq duran ikinci bir örnək, nümunə yoxdur.



Azərbaycanın çətin sınaqlarla üz-üzə olduğu Vətən müharibəsində qardaş ölkə Türkiyənin mənəvi, siyasi dəstəyini hiss etməyimiz, "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır", - deyə dünyaya verdiyi xəbərdarlıq mesajını duymağımız bizə əlavə güc, ruh verdi.

Eləcə də Azərbaycan xoş günlərində olduğu kimi, dar məqamlarında da qardaş Türkiyənin yanındadır, ona hər cür dayaq, dəstəkdir və bütün çətinliklərə qarşı onunla birgə mübarizə aparır.

### Azərbaycan faciənin ilk günündən qardaş Türkiyənin yanındadır

"Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi...", - deyə Prezident İlham Əliyev fevralın 6-da baş verən dəhşətli zəlzələ ilə bağlı qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanladı. Fevralın 8-də Türkiyənin ölkəmizdəki səfirliyinə yollanaraq başsağlığı verən dövlət başçısı səfir Cahit Bağçı ilə söhbətində bir daha vurğuladı ki, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır.

Fevralın 25-də Türkiyəyə yollanaraq İstanbulda qardaş ölkənin rəhbəri Rəcəb Tayyib Ərdoğanla görüşən Prezident İlham Əliyev baş vermiş zəlzələ nəticəsində həlak olanların ailələrinə, yaxınlarına, Prezident Rəcəb Tayyib Ərdoğana və qardaş Türkiyə xalqına öz adından və Azərbaycan xalqı adından bir daha dərin hüznlə başsağlığı verdi, xəsarət alanların tezliklə şəfa tapmasını arzuladı.

Dövlət başçısı bu faciədən çox kədərləndiyini və onun Azərbaycan xalqını dərindən sarsıtdığını bildirdi. Azərbaycanın və Türkiyənin həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olduqlarını bildirən Prezident İlham Əliyev ölkəmizin bu faciənin ilk günündən qardaş Türkiyənin yanında olduğunu qeyd etdi, zəlzələnin nəticələrinin aradan qaldırılması üçün ölkəmizin humanitar yardımları bundan sonra da davam etdirəcəyini diqqətə çatdırdı.

### "Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq"

Sözügedən görüş zamanı Türkiyəyə səfər etdiyinə, Azərbaycanın ilk gündən nümayiş etdirdiyi dəstək və həmrəyliyə görə dövlət başçısı İlham Əliyevə dərin minnətdarlığını bildirən Rəcəb Tayyib Ərdoğan Azərbaycanın göndərdiyi humanitar yardımları yüksək qiymətləndirdi. Türkiyə Prezidenti azərbaycanlı xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində öz fəaliyyətlərini böyük cəsarətlə və əzmlə davam etdirdiklərini, insanların xilası üçün fədakarlıqla çalışdıqlarını bildirdi.

Xatırladaq ki, fevralın 9-da zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep Hava Limanında humanitar yardım gətirən Heydər Əliyev Fondunun əməkdaşları ilə görüşmüş, "İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adından çox təşəkkür edirəm!" söyləyərək onu da vurğulamışdı ki, "Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!"

### Azərbaycanın humanitar yardımları davam edir

Fevralın 6-da baş verən təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün Türkiyəyə ilk beynəlxalq yardımı Azərbaycan göndərib. Xeyli dağıntılara və insan itkisinə səbəb olan zəlzələnin fəsadlarının aradan qaldırılmasına kömək etmək üçün ilk gündən etibarən Azərbaycan qardaş ölkənin yanında, onunla çiyin-çiyinədir. Bu faciədən dərindən sarsılan Azərbaycan xalqının hər bir üzvü, ölkənin ən ali şəxslərindən tutmuş sıravi vətəndaşlarına qədər hər kəs, tutduğu vəzifədən, mövqedən asılı olmayaraq türkiyəli bacı-qardaşlarımıza kömək etmək üçün səfərbər olub, candildən yardımlar etməyə başlayıb.

Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Xarici İşlər Nazirliyinin məlumatına əsasən, Azərbaycan baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar 21 fevral tarixinədək qardaş ölkəyə zəruri ləvazimatlarla yanaşı, 24 milyon 9 yüz min manat maddi yardım edib. Bu məbləğdə hökumət, dövlət qurumları, hüquqi və fiziki şəxslər tərəfindən birbaşa maddi yardım öz əksini tapıb. Azərbaycanın qardaş ölkəyə humanitar yardımları davam edir.

Dost, qardaş, həm də rəsmən müttəfiq ölkələr Azərbaycan və Türkiyənin sarsılmaz birliyinə nümunə olaraq gətirdiyimiz bu bir neçə fakt da göstərir ki, iki qardaş ölkə kədərini də, sevincini də, qalibiyyətini də birgə yaşayır. Bütün çətinliklərə də sarsılmaz birliklərinin gücü ilə qalib gəlirlər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*